# Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi Şurasının əsasnaməsi

1. Azərbaycan Dövlət Pedaqoji Universitetinin (bundan sonra ADPU) Elmi Şurası haqqında Əsasnamə "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000- ci il tarixli 349 nömrəli Fərmanına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 dekabr 2001 -ci il tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş "Özünüidarəetmə prinsipi əsasında fəaliyyət göstərən dövlət ali təhsil müəsississələri haqqında Əsasnamə"yə və Azərbaycan Respublikası təhsil nazirinin 10 noyabr 1997-ci il tarixli, 792 nömrəli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisəsinin Elmi Şurası haqqında Əsasnamə"yə müvafiq olaraq hazırlanmışdır və ADPU-nun Elmi Şurasının yaradılmasının və fəaliyyətinin əsas istiqamətlərini müəyyən edir.
2. Elmi Şura ADPU-nun kollegial idarə orqanıdır və ADPU-ya ümumi rəhbərlik bu Şura tərəfindən həyata keçirilir. ADPU-nun rektoru Elmi Şuraya başçılıq edir.
3. Elmi Şuranın səlahiyyət müddəti 3 ildir. Elmi Şuranın vaxtından əvvəl yenidən yaranması onun üzvlərinin ən azı 2/3 hissəsinin tələbi ilə həyata keçirilə bilər.
4. Elmi Şuranın tərkibinə seçilmə qaydası, onun hüquq və vəzifələri Azərbaycan Respublikası təhsil nazirinin 10 noyabr 1997-ci il tarixli 792 nömrəli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisəsinin Elmi Şurası haqqında Əsasnamə"yə zidd olmamaq şəni ilə aşağıdakı kimi müəyyənləşdirilir:
4.1. Tutduqları vəzifələrinə ğörə Elmi Şuranın tərkibinə ADPU-nun rektoru (sədr), tədris işləri üzrə prorektor (sədrin müavini), prorektorlar, elmi katib, dekanlar, ADPU-nun tərkibində fəaliyyət göstərən ETİ-lərin, filialların və digər struktur bölmələrinin rəhbərləri, müəllim və tələbə həmkarlar ittifaqları komitələrinin, tələbə gənclər təşkilatının, Tələbə Elmi Cəmiyyətinin, tədris-metodik şuranın sədrləri daxil olurlar. Elmi Şuranın diğər üzvləri ADPU-nun professor-müəllim və elmi işçilərinin ümumi sayının 3-10%-ni təşkil edə bilər. Bu miqdar rektor tərəfindən professor-müəllim və elmi işçilərinin sayından asılı olaraq müəyyənləşdirilir. Bundan əlavə Elmi Şuranın tərkibinin 10 %-ə qədəri ADPU-nun rektoru tərəfindən ümumi saya əlavə olaraq təyin edilə bilər (ADPU-nun daxilində).
4.2.Elmi Şuraya namizədlər hər bir fakültənin, filialın və ya müvafiq struktur bölməsinin professor-müəllim və elmi işçilərinin ümumi içlasında gizli səsvermə yolu ilə seçilir. Fakültənin və ya müvafık struktur bölməsinin professor-müəllim və elmi işçilərinin ümumi sayının 2/3 hissəsi iştirak etdikdə iclas səlahiyyətli sayılır. Fakültəyə ayrılan yerlərə iştirakçılardan 50%-dən daha artıq çox səs toplayanlar Elmi Şuraya üzv seçilmiş hesab edilirlər. Flər bir əməkdaş şura üzvlüyündən çıxdığı halda boşalan yeri həmin fakültənin (bölmənin) nümayəndəsi mövcud qaydada vaxtından əvvəl seçki keçirməklə tuta bilər.
5. ADPU-nun Elmi Şurası: ADPU-nun Nizamnaməsini qəbul edir, Nizamnamədə, eləcə də Nizamnamə Fondunda əlavələr və dəyişikliklər aparmaq üçün təki i flər verir və həyata keçirir; ADPU -nün inkişaf Proqramını təsdiq edir, ADPU -nun inkişafının ən vacib məsələlərini, tədris və elmi fəaliyyətinin müxtəlif istiqamətlərini, beynəlxalq əlaqələrini həll edir; ADPU rektorunun səlahiyyətlərini müəyyənləşdirir və təsdiq edir, lazım gəldikdə rektora əlavə səlahiyyətlər verilməsi məsələsini həll edir;ADPU kollektivinin (tələbələrin, müəllimlərin, əməkdaşların, doktorant və dinləyicilərin) daxili intizam qaydalarını təsdiq edir; Əsasnamələri, təlimatları və digər normativ sənədləri təsdiq edir; ADPU -nun strukturunu müəyyənləşdirir, ona dəyişikliklər və əlavələr edir; ADPUya tələbə qəbulu planını müəyyənləşdirir; Hər il ADPU-nun büdcəsini müəyyənləşdirir, universitetin malyyə fəaliyyəti haqqında hesabatı dinləyir;akültələrdə (ETİ-lərdə, filiallarda, kafedralarda, kolleclərdə, məktəb və s) vəzifə tutmaq üçün müsabiqə keçirməyin, kontraktların və müqavilələrin vahid qaydalarını təsdiq

edir; Kadr məsələlərinə baxır, ADPU -nun struktur bölmələrinin (fakültə, ETİ, filial və s.) elmi şuralarının təklifi ilə professor və baş elmi işçi vəzifələrini tutmağa iddiaçıların müsabiqəsini keçirir, onların vaxtından əvvəl tutduqları vəzifələrdən azad olunmaları barədə məsələlərə baxır. Şöbə, fakültə və universitet tabeliyindəki laboratoriya müdirlərini seçir; Hər il ADPU-nun fəaliyyəti barəsində rektorun hesabatım dinləyir; Mütəxəssislərin, elmi-pedaqoji kadrların hazırlanması, onların əlavə təhsili məsələlərinə baxır, bütün təlim-tərbiyə və elmi-tədqiqat işləri ilə bağlı məsələləri həll edir; Şuranın işini təşkil etmək, iclasları hazırlamaq və qərarların həyata keçirilməsinə nəzarət etmək məqsədilə Şura üzvləri içərisindən elmi katib seçir; Fakültələrin, kafedraların və ADPU-nun digər struktur bölmələrinin yaradılması, ləğvi, yenidən təşkili barəsində məsələləri həlli edir; Vaxtaşırı fakültələrin tədris, elmi-tədqiqat və tərbiyə işləri haqqında hesabatını dinləyir; ADPU əməkdaşlarına “professor”, “dosent”, “baş elmi işçi” və s. elmi adlarının verilməsi haqqında vəsatət qaldırır; ADPU əməkdaşlarını respublikanın fəxri ad və mükafatlarının, orden və medallarının verilməsinə təqdim edir; Ölkədə və dünya miqyasında tanınmış görkəmli alimlərə, dövlət xadimlərinə, ictimai və siyasi xadimlərə “ ADPU -nun fəxri doktoru”, və ya “ ADPU - nun fəxri professoru” adlarını verir; Elmi işə və pedaqoji fəaliyyətə görə ADPU -nun mükafatlarını verir; Professorməsləhətçi ştatı ayırır; Tədris planlarını təsdiq edir; Dərs vəsaitlərinin, Tədris-metodiki vəsaitlərin, monoqrafiyaların və tədris proqramlarının nəşri üçün qərar verir; İmtahanların keçirilmə qaydalarını və qiymətləndirmə kriteriyalarının müəyyən edir; Təqaüdlərin təyin edilmə qaydalarını qüvvədə olan normativlərə uyğun müəyyənləşdirir; AMEA-nm həqiqi və müxbir üzvlüyünə seçilmək üçün namizədlər irəli sürür; Kafedra müdiri və dekan vəzifələrinin tutulması üzrə müsabiqələri həyata keçirən Komissiya yaradır və onun tərkibini təsdiq edir; Müstəsna hallarda - fakültə Elmi Şuraları olmadıqda və münaqişələr yarandıqda rektorun qərarı ilə dosent, baş müəllim və assistentləri, elmi işçiləri seçir və onların vaxtından əvvəl azad olunmaları barəsində məsələlərə baxır.

6. Elmi Şura tədris ili və hər semestr üçün nəzərdə tutulmuş iş palnı üzrə işləyir. Elmi Şuranın iş planı iclasda müzakirə olunub qəbul edilir və rektor tərəfindən təsdiq edilir.

7. Tədris, elmi və tərbiyə işlərinin bütün məsələləri üzrə Elmi Şuranın qərarları açıq səsvermədə sadə səs çoxluğu ilə, professor-müəllim heyətinin seçilməsi və geri çağrılması, professor, dosent və fəxri adların verilməsinə təqdimat zamanı isə müəyyən olunmuş qaydada gizli səsvermə yolu ilə qəbul edilir.

8. Elmi Şuranın iclasları ayda bir dəfədən az olmayaraq keçirilir.

9. Elmi Şuranın qərar çıxarması üçün iclasda onun üzvlərinin ən azı 2/3 hissəsinin iştirakı vacibdir. Elmi Şurada iştirak edənlərin ümumi sayının 50 %-dən çoxu müzakirə olunan məsələnin leyhinə səs verərsə qərar qəbul olunmuş hesab edilir.

10. Elmi Şuranın qərarları yalnız ADPU -nun rektoru tərəfindən təsdiq olunduqdan sonra qüvvəyə minir.

11. Elmi Şuranın iclasları protokollaşdırılır, Elmi Şuranın sədri və katibi tərəfindən imzalanır və elmi katibdə saxlanılır.

12. Elmi Şuranın sədri Şuranın qərarlarının icrasının müntəzəm yoxlanılmasım təşkil edir və Şuranın üzvlərinə qəbul olunmuş qərarların yerinə yetirilməsi barəsində məlumat verir.

13. Əsaslı səbəblər olduqda - Elmi Şuranın qəbul etdiyi qərarın obyektiv olmadığı, qanunvericiliyə zidd olduğu müəyyənləşdirildikdə ADPU Elmi Şurasının qərarı Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən ləğv oluna bilər.